# Ərdoğana poetik sevgi




***Filologiya elmləri doktoru, şair Nizami Muradoğlunun "Alp Ərdoğan - Sultan Ərdoğan" ("Füyuzat", 2021) poeması işıq üzü görüb. Kitaba Qalib Sayılovla Seyfəddin Rzasoy "Zəfər kitabları qaliblərə ithaf olunur" adlı ön söz yazıblar.***

Burada Nizami Muradoğlunun əsəri ilə bağlı fikirlər söyləyib, qeyd etmişlər ki, "Cəmiyyət arasında ən tez qavranılan metod bədii-fəlsəfi tərənnüm metodudur ki, bütün təbəqələr onu tez anlayır. Necə ki, Nizami Muradoğlu bu metodu uğurlu və dolğun formada qələmə almışdır".

Ön sözdə bu müəlliflərin də qeyd etdikləri kimi, N.Muradoğlu Rəcəb Tayyib Ərdoğanın uşaqlıq, gənclik illərini də qələmə almışdır ki, bu da əslində janrın tələbindən irəli gələn haldır. Belə ki, əgər bu əsərin poema janrında yazıldığını qəbul etsək, onda poema sözünün hərfi mənasının qurmaq, yaratmaq olduğunun fərqinə varmalıyıq. Başqa sözlə, əgər müəllif qarşısına Türkiyənin Cumhur başqanının ədəbi portretini canlandırmağı məqsəd qoymuşdursa, onda təbii ki, obrazı bütövlükdə və dolğun şəkildə vermək üçün bu dahi şəxsiyyətin həyatından ayrı-ayrı epizodları da əsərə gətirməli idi. Bu mənada Nizami Muradoğlu Türkiyə Cümhuriyyəti Prezidentinin uşaqlıq və gənclik illərinə dair fraqmentləri əsərin əvvəlində verdikdən sonra tədricən onun nəhəng siyasi simasını göz önünə gətirir:

Yenə qalxır kürsüyə
Təmkinlə, asta-asta.
Sağ əlini qaldırıb
Beş barmağın göstərir,
Söyləyir mahir usta:
Dünya beşdən böyükdü.
Biz də varıq dünyada,
Kim bunu qəbul etmir
Özü dünyaya yükdü.
Kainata Günəş tək
Doğulma anındayıq!
Zalımın qarşısında,
Məzlumun yanındayıq!
Cənablar, yaxşı baxın,
Çıxarın gözünüzdən
O qara eynəkləri.
Görə bilirsinizmi
Somalidə acından
Qırılan bəbəkləri?!
Suriyada, İraqda
Açıldıqca güllələr,
Ölür insan,
Axır qan.
Salıbsınız çöllərə
Dağılan yurdlarını
Tərk edən köçmənləri.
Öz elində didərgin
Ərəbi, türkmənləri.
Yaxın Şərqdə nə vaxtdı
Nə yağış yağır, nə qar...
Göydə, yerdə od saçır
Söz göndərən bombalar.

Bu minvalla Nizami Muradoğlu poema janrının tələblərinə uyğun olaraq Rəcəb Tayyib Ərdoğanın ədəbi simasını obyektiv və dolğunluğu ilə təqdim edir.

Əlbəttə ki, bu kitab müəllifin həm də Şanlı Zəfərimizdən ilhamlanmasının məhsuludur. Belə ki, 2-ci Qarabağ savaşında da Türkiyə Prezidenti bizə mənəvi dəstək göstərdi. Azərbaycan-Türkiyə dostluğu və qardaşlığının sarsılmaz ifadəsinin poeziyadakı təcəssümü kimi Nizami Muradoğlu belə bir əsərə imza atdı, bir yazar kimi xalqımızın, eləcə də dövlətimizin Türkiyə sevgisini, Ərdoğan sevgisini bu sayaq nümayiş etdirdi.

Şakir Əlifoğlu